**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**
**Q Ə R A R**
**№ 1**

**Bakı şəhəri** **24 yanvar 2024-cü il**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası Vüsalə Mikayıl qızı Qəndəliyevanın Bakı Şəhər Statistika İdarəsinin Maliyyə və təsərrüfat sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2023-cü il dekabr ayının 18-də keçirilən müsabiqənin müsahibə mərhələsinin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Qəndəliyeva Vüsalə Mikayıl qızı Bakı Şəhər Statistika İdarəsinin Maliyyə və təsərrüfat sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2023-cü il sentyabr ayının 6-da elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2023-cü il dekabr ayının 18-də Bakı Şəhər Statistika İdarəsinin İnsan resursları, hüquq və sənədlərlə iş sektorunun müdiri Telman Quliyev, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Hidayət Cavadlı və müstəqil ekspert Faiq Əhmədovdan ibarət komissiya tərəfindən keçirilmişdir. Qəndəliyeva Vüsalə Mikayıl qızına müsahibə komissiyasının üzvlərindən T.Quliyev 14 bal, H.Cavadlı 14 bal və F.Əhmədov 13 bal vermiş və nəticədə iştirakçı 13.7 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 19.12.2023-cü il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Qəndəliyeva Vüsalə Mikayıl qızının 2023-cü il 19 dekabr tarixli apellyasiya şikayəti təmin edilməsin və Bakı Şəhər Statistika İdarəsinin Maliyyə və təsərrüfat sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2023-cü il dekabr ayının 18-də keçirilən müsabiqənin müsahibə mərhələsinin nəticəsi qüvvədə saxlanılsın.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə və şikayətçiyə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN

Əsli ilə düzdür: